DOI:10.30546/gdu.3.2024

**UOT:745**

# AZƏRBAYCANDA DEKORATİV TƏTBİQİ SƏNƏT

***Verdiyeva Esmira Hüseyn qızı***
***Gəncə Dövlət Universiteti***
***esmira.verdiyefva@mail.ru***

**Xülasə**: *Azərbaycan sənətkarları XI-XV əsrlərdə metaldan təkcə məişət əşyaları yox, zərif zinət işləri ilə hazırlayırdılar. Mil düzündə, Qəbələdə, Mingəçevirdə, Naxçıvanda və s. yerlərdə qazıntı işləri zamanıəldə edilmiş qızıl, gümüş kəmər hissələri, üzük, qolbaq və s. şeylər zərgərliyin Azərbaycanda hələ ilk orta əsrlərə qədər də yüksək səviyyədə olduğunu göstərir. Zərgərliyin ən mürəkkəb texniki üsullarında: şəbəkə, basma, qələm işi və s. bəzədilmiş bu sənət nümunələri öz orijinal formaları və zərif işlənməsi ilə fərqlənir* ***XI-XV əsrlərdə*** *Azərbaycan metal sənəti yüksək inkişaf mərhələsi keçmişdir. Bu dövrdə metaldan müxtəlif növlü silahlar, müxtəlif formalı ev avadanlığı və s. sənət nümunələri hazırlanmışdır.*

**Açar sözlər:** metal, qızıl, gümüş,
**Ключевые слова:** металл, золото, серевро
**Key words:** metal, gold, silver

Yurdumuzun zəngin təbiəti hələ lap qədim zamanlardan bir çox sənət növlərinin inkişafıüçün əlverişli şərait yaratmışdır.Ulu babalarımızın keçmişdə təbiətdə rast gəldiklərimiz ən adi şeylərdən qamışdan ,gildən ,sümükdən ,dəridən və yundan məharətlə istifadə edərək öz həyat məişətləri üçün əməli əhəmiyyətə malik bir çox əşyalar düzəltmişlər.Bu əşyaların üzərində müxtəlif əsrlərə aid bir çox rəsm və arnament ünsürlərinə rast gəlirik.Azərbaycan xalq sənətinin çox qədim və zəngin ənənələri vardır.Qazax, Gəncə və s. yerlərdən əldə edilmiş metaldan düzəldilmiş sənət əsərlərinin yaşı 5000 ilə yaxındır. Bu ərazidən tapılmış qab-qacaq, silah və bəzək nümunələri tək bir tarixi fakt kimi deyil, həm də onu yaradan sənətkarın ustalıq bacarığından məlumat verən qiymətli mənbədir.

Azərbaycanda eneolit dövründə mis kəşf edildikdən sonra metal ibtidai icma cəmiyyətinin iqtisadi, təsərrüfat, ictimai və mədəni həyatında görkəmli rol oynamağa başlayır. Bu zaman qurğuşun, qalay, marqans metallarının kəşfi Azərbaycan tarixində yeni və mütərəqqi bir dövrün, tunc dövrünün başlanması ilə bağlıdır.Azərbaycan ərazisində qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələri göstərir ki, əcdadlarımız hələ eramızdan əvvəl II minillikdə tuncdan zərif formalı qablar, xəncərlər, baltalar, kəmərlər və s. zinət şeyləri düzəldib öz həyat və məişətində istifadə edirlərmiş.Bu dövrdə tuncdan düzəldilmiş məmulatlar öz dəqiq işlənməsi və bəzən çox orijinal formalarda olmalarına baxmayaraq, əsasən bəzəksiz idi. Abidələr içərisindəöz orijinal forması və dəqiq işlənməsi ilə Qarabağın Dolanlar kəndindən tapılmış ikibaşlı tunc maral fiqurunu göstərmək olar. Qədimdə metal əsas etibarı ilə dini xarakter daşıyan bədii sənət əsərlərinin düzəldilməsində istifadə olunduğuna görə, çox guman ki, maral bütövlükdə bu ərazidə yaşayanların pərəstiş etdikləri totem imiş.

Tuncdan düzəldilmiş qədim dövr abidələrimiz içərisindəöz bədiiliyi və sənətkarlığı baxımından diqqəti cəlb edən əsərlərdən biri də kəmərlərdir. Qarabağ, Qazax, Gədəbəy və s. yerlərdən əldə edilmiş bu tunc kəmərlər üzərindəki zoomorf rəsmləri və naxışları ilə adamı valeh edir.Bu inkişaf Cənubi Azərbaycanda arxeoloji qazıntılar zamanı aşkar edilmiş zərgərlik sənəti nümunələrindəözünü göstərə bilmişdir.Azərbaycan el sənətləri taixindəən zəngin dövrlərdən birini orta əsrlərtəşkil edir. Bu dövrdə yaradılmış məişət əşyaları içərisində Mingəçevirdən arxeoloji qazıntılar zamanı tapılmış və hazırda Bakıda Azərbaycan Tarixi muzeyində nümayiş etdirilən qab-qacaqlar xüsusən maraqlıdır.Milli ənənələrimizə sadiq qalan məişət əşyaları sırasına vaxtı ilə Dağıstandan tapılmış, hazırda Sankt-Peterburqun

DOI:10.30546/gdu.3.2024

Ermitajında saxlanılan bürünc məcməini də aid etmək olar. Məcməinin üzərinə döyməüsulu ilə həkk edilmiş gül, çiçək, budaq rəsmləri və onların ümumi kompozisiyasıöz üslub xüsusiyyətlərinə görə bu orijinal sənət əsərini VI-VII əsrlərə aid edir. Məcməinin ortasında böyük medalyonda verilən nəbati ornament motivləri diqqəti cəlb edir.

Azərbaycan sənətkarları bu əsrlərdə metaldan təkcə məişət əşyaları yox, zərif zinət işləri ilə hazırlayırdılar. Mil düzündə, Qəbələdə, Mingəçevirdə, Naxçıvanda və s. yerlərdə qazıntı işləri zamanıəldə edilmiş qızıl, gümüş kəmər hissələri, üzük, qolbaq və s. şeylər zərgərliyin Azərbaycanda hələ ilk orta əsrlərə qədər də yüksək səviyyədə olduğunu göstərir. Zərgərliyin ən mürəkkəb texniki üsullarında: şəbəkə, basma, qələm işi və s. bəzədilmiş bu sənət nümunələri öz orijinal formaları və zərif işlənməsi ilə fərqlənir XI-XV əsrlərdə Azərbaycan metal sənəti yüksək inkişaf mərhələsi keçmişdir. Bu dövrdə metaldan müxtəlif növlü silahlar, müxtəlif formalı ev avadanlığı və s. sənət nümunələri hazırlanmışdır .Bu dövrdə metaldan düzəldilmiş abidələr içərisində diqqəti cəlb edən yüksək sənətkarlıq nümunələrindən biri Sankt-Peterburqun Dövlət Ermitajında saxlanılan 1206-cı ilə aid tuncdan tökülmüşŞirvan lüləyinidir. İlk baxışda bunun adi bir su qabı olduğunu müəyyən etmək bir qədər çətindir. Tunc lüləyinin üzəri cızma və xatəmkarlıq üsulunda gümüşlə bəzədilmişdir.

Şirvan lüləyinin ornamental bəzəkləri arasında qiymətli tarixi mənbə olan yazılar da vardır. Yazıların birində bu gözəl sənət nümunəsini yaradan sənətkarın adı "Əli Məhəmməd oğlü" həkk olunmuşdur.

XIV-XV əsrlərdə bədii metal sənətkarlığı sahəsində Təbriz şəhəri görkəmli yerlərdən birini tutur. Hazırda dünyanın bir çox görkəmli muzeylərində bu əsrlərdə Təbrizdə yaradılmış bir çox orijinal bədii metal sənəti nümunələri nümayiş etdirilir. Bunlardan 1319-cu ildə Yusif ibn Əhməd Təbrizi tərəfindən düzəldilmiş və hazırda Londonda Viktoriya və Albert muzeyində nümayiş etdirilən bədii kasanı və Sankt-Peterburq Dövlət Ermitajında saxlanılan tunc tiyanı xüsusilə qeyd etmək lazımdır.Təbrizlə yanaşı, bu dövrdə və sonralar Azərbaycanın başqa şəhərlərində də bədii metal sənətkarlığının inkişaf etdiyini göstərən çoxlu faktik nümunələr vardır. Hazırda Amerikada cənab Hararinin şəxsi kolleksiyasında XV əsrə aid çox orijinal bir bürünc istirlab saxlanmaqdadır. Astronomiya elmində istifadə edilən bu cihaz üzərindəki qeydlərə görə 1468-ci ildə məşhur Şirvan ustasıŞükrullah Müxis tərəfindən hazırlanmışdır. Bu istirlab öz dövrünə görə yüksək texniki bir cihaz olmaqla bərabər, üzərindəki bəzəkləri ilə də nəzəri cəlb edir.VI-XVII əsrlərdə metaldan ev avdanlığı, silah və bəzək nümunələri düzəltmək Təbriz, Ərdəbil, Marağa, Naxçıvan, Gəncə, Şamaxı və Bakışəhərlərində xüsusilə geniş inkişaf etmişdir. Bu dövrdə xaricdə Azərbaycan sənətkarları tərəfindən hazrlanmış silah (xəncər, qılınc, topuz, qalxan) və zirehli geyimlər (başlıq, dirsəklik, dizlik və s.) xüsusilə genişşöhrət tapmışdır.

Qalxan və zirehli geyimlərin də tərtibatıəvvəlki dövrlərə nisbətən xeyli zənginləşmiş və dəbdəbəli olmuşdur.

Hazırda Kremlin silah palatasında saxlanılan XIV əsrə aid bir qalxan xüsusilə diqqəti cəlb edir. Misli görünməyən gözəlliyi olan bu qalxan deyildiyinə görə rus çarı M.F.Romanovun müharibə vaxtıözünü qorubuğu silahlardan olmuşdur. Sonra bu qalxan məşhur rus sərkərdəsi F.İ.Mstislavskidə olmuş, 1622-ci ildən isə o öldükdən sonra, daimi olaraq rus çarlarının xəzinəsinə verilmişdir. Diametri 50,8 sm olan bu qalxan bütöv qırmızı poladdan döyülərək üzəri xatəmkarlıq üslubunda qızılla bəzədilmişdir.

Azərbaycanda düzəldilmiş bu dövrə iki maraqlıəsəri də qeyd etməliyik. Bunların ikisi də müharibə zamanı zadəganlar tərəfindən istifadə edilən baş geyimləridir. Bunların birisi hazırda Moskvada Silah palatasında, o birisi isəİstanbulda saxlanılır. İkinci başlığın üzərində onun 1528-ci ildəŞah Təhmasib üçün düzəldiyi qeyd olunmuşdur.Şah İsmayılın qızıl kəməri xüsusilə maraqlıdır. Hazırda İstanbulda Topqapı saray ı muzeyində saxlanılan bu kəmər kişi

DOI:10.30546/gdu.3.2024

kəmərlərinin ən zəngin və bəzəkli nümunələrindəndir. Kəməri bəzəyən nəbati ornamental naxışlar dövrün xalça, parça və qeyri sənət nümunələrində rast gəlinən bəzəkləri xatırladır. Kəmərin ən gözəl hissəsini onun toqqası təşkil edir. Dairə formasında olan bu toqqada real səpkidə at belində ova çıxmış bir zadəgan gənc və onu müşahidə edən bələdçi təsvir edilmişdir.

Toqqa içərisindəki təsvirlər həm ümumi kompozisiya, həm də ayrı-ayrı motivləri ilə dövrün miniatür sənətindəki bəzi süjetləri xatırladır.XVIII əsrdə Azərbaycanda ən çox misgərlik inkişaf etmişdir. Xarici ölkə səyyahları Təbriz, Gəncə, Şəki, Şuşa, Şamaxı, Bakışəhərlərində bu əsrlərdə xüsusi misgərlik küçəsi olduğunu və orada misdən bəzəkli, orijinal formalı qab-qacqlar düzəldiyini qeyd edirlər.

XVIII əsrdəŞəki şəhəri də metaldan ev avadanlığı, bəzək nümunələri düzəltməkdə görkəmli yerlərdən birini tuturdu.

Nəbati naxışlar içərisində dalğavari xətt üzərində gül, çiçək, yarpaq bənd olunmuş "İslimi" adlı kompzisiya, həmçinin üz-üzə dayanmış bülbül vəşir fiqurlarıəsas yer tuturlar.

XVIII əsrdən dövrümüzə qədər bir çox zərgərlik sənəti nümunələri də gəlib çatmışdır.

Bu əsrlərdə Azərbaycan qadınları tərəfindən istifadə edilən bəzək nümunələrindən ən geniş yayılanı boyun bəzəkləri idi. Bunlardan: sinəbənd, boğazaltı, çəçik, qarabatdaq və s. göstərmək olar.

Bu əsrlərdə yaradılmışən gözəl zərgərlik nümunələri sırasında hazırda Zaqatala ölkəşünaslıq muzeyində saxlanılan 2 eyni tipli qadın baş geyimləirni də aid etmək olar.

Haqqında bəhs etdiyimiz baş geyimləri ilk nəzərdə dəbdəbəli bir dəbilqəni andırır.

Zərgərlik nümunələrimizin keçmişənənələrlə sıx əlaqəsini bu dövrdə düzəldilmiş qadın və kişi kəmərləri xüsusiləəyani bir şəkildə təsdiq edir.

XVIII əsrdə Azərbaycanda ən geniş yayılmış kəmərlədən biri "çərkəzi kəmər" adlı kişi kəməri idi. Belə kəmərin üzərinə arabir paxlava, dairə, bəzən üz-üzə dayanmış at, qoç təsvirləri, üzəri qarasavad, basma üsulu ilə bəzədilmiş etal fiqurları bənd edilirdi.XVIII əsrdə Azərbaycanda metaldan hazırlanmış məişət əşyaları, silah, zinət şeyləri əsas etibarı ilə 6 texniki üsulla bəzədilirdi. Bunlar: döymə, basma, qarasavad, şəbəkə, xatəmkalıq və minaçılıqdır.Döymə ən qədim üsullardan biridir. Sənətkarlığın başqa texniki üsullarına nisbətən xeyli sadədir. İti göz və böyük ustalıq tələb edir. Sənətkarlar çəkic və ucu nazik alətlərlə işləyirlər.Basma üsulunda istənilən ölçüdə qızıl, gümüş və qiymətli metal parçasını hündür naxışlı və yaxud rəsmli qəlib üstə qoyurlar. Sonra bu qiymətli metal parçasının üstündən də elə bu ölçüdə qurğuşun parçası qoyaraq, taxta çəkiclə döyməyə başlayırlar və beləliklə, qiymətli metal istənilən rəsmin formasını alır. Basma üsul daha çox kəmər, düymə, qolbaq və s. şeylərin düzəltməsində işlədilir

Hal-hazırda ali və orta təhsil ocaqlarında muzeyl işləri geniş tədris olunur.

### *Ədəbiyyat*

1.“Azərbaycan incəsənəti”(uşaqlar üçün ensklopededik məlumat kitabı), I cild, Bakı-2010
2. Ayna uşaq ensiklopediyası (İncəsənət bəşəriyyətin misilsiz sərvətidir) Bakı 2004, 94 səh.
3. Hüseynov İ, Əfəndiyeva N. Qədim dünya mədəniyyəti Bakı 2009 -427

DOI:10.30546/gdu.3.2024

## ДЕКОРАТИВНО-ПРИКЛАДНОЕ ИСКУССТВО В АЗЕРБАЙДЖАНЕ

***Вердиева Есмира Гусейновна***

***Резюме***

Богатая природа нашей страны еще с незапамятных времен создала благоприятные условия для развития многих видов искусства.Наши прадеды умело использовали тростник, глину,кость, кожу и шерсть из самых обычных вещей, которые мы встречали в природе в прошлом, чтобы сделать много вещей, имеющих практическое значение для их собственного быта.На этих предметах мы находим множество картин и элементов украшения разных веков.Азербайджанское народное искусство имеет очень древние и богатые традиции.

## DECORATIVE APPLIED ART IN AZERBAIJAN

***Verdieva Esmira Huseyn***

***Summary***

The rich nature of our country has created favorable conditions for the development of many types of art since early times.our great-grandfathers skillfully used cane, clay bone,leather and wool from the most ordinary things that we met in nature in the past and made many items of practical importance for their life.On these objects we find many elements of paintings and ornaments from different centuries.Azerbaijani folk art has very ancient and rich traditions.

***Rəyçi: Rəsulova Elnarə***
***İncəsənət kafedrasının 25 sentyabr 2024-cü il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olma tarixi 07 oktyabr 2024-cü il***